# Cəbrayılın “yaşıl” dirçəlişi

## *Fermerlər torpağın yaralarını sağaldırlar*

**Qarabağın güney tərəfdən qapısı sayılan Cəbrayıl rayonu öz gözəl təbiəti, bərəkətli torpaqları, eləcə də sadə, halal, əməksevər insanları ilə tanınır. Acı təəssüf ki, 27 il işğal altında qalan rayon sakinləri məcburi köçkünlük ağrı-acısını yaşamalı olublar. O ağır illərdə əhali ölkəmizin 50-yə yaxın şəhər və rayonlarına səpələnmişdi.**



**Cəbrayıl Dövlət Aqrar İnkişaf Agentliyinin direktoru (DAİM) Şahin Şirinov** bizimlə söhbət zamanı dedi ki, Azərbaycan dövləti heç vaxt cəbrayıllı məcburi köçkünləri diqqətsiz qoymamışdır. 2000-ci illərin əvvəllərindən başlayaraq cəbrayıllı ailələrin böyük bir hissəsi Biləsuvar rayonu ərazisində inşa olunmuş qəsəbələrdə məskunlaşmışdı. Bu ailələrin məşğulluğunu təmin etmək məqsədilə onlara Biləsuvar rayonu ərazisində torpaq sahələri ayrılmışdır.

O vaxtdan qəsəbə sakinləri həmin sahələri əkib-becərir, mal-qara saxlayır, eləcə də arıçılıq ilə məşğul olurlar. Xoşbəxtlikdən 2020-ci il oktyabrın 4-də rayonun ərazisi Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən düşməndən azad edilmişdir.

***– Şahin müəllim, yeni təsərrüfat ili təzə başlayıb. Əvvəlcə ötən ilin uğurları ilə tanış olaq...***

– Böyük məmnuniyyətlə. Uğurlarımız boldur. Bildiyiniz kimi, aqrar sektor spesifik özəllikləri olan sahədir. Burada torpağın nazını çəkməsən, onu vaxtında gübrələrlə bəsləməsən, yüksək məhsul əldə etmək mümkün olmaz. Cəbrayıllı fermerlər isə səriştəli insanlardır, əkinçilikdə müasir torpaq becərmə normalarından kifayət qədər səmərəli istifadə etməyi bacarırlar.

Konkret rəqəmlər səsləndirmək istərdim. Məsələn, 2025-ci ilin məhsulu üçün 12 min 811 hektar sahədə becərilən taxıl zəmilərindən 16 min 289,5 ton məhsul istehsal edilib ki, bunun 12 min 144,5 tonu buğda, 4 min 145 tonu arpa olub. Həm buğda, həm də arpa istehsalında artım qeydə alınıb.

***– Cəbrayıl rayonunun ərazisi artıq 5 ildən çoxdur ki, işğaldan azad edilib. Həmin torpaqlarda kənd təsərrüfatı məhsulları becərilirmi?***

– Qeyd olunmalıdır ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının bərpası və yenidən qurulması ölkə Prezidentinin xüsusi diqqətindədir. Bu ərazilərdə torpaqların təyinatı üzrə istifadəyə hazırlanması, infrastrukturun yenidən qurulması, fermerlərin bu ərazilərə gəlişinin təşviqi və pilot təsərrüfatların yaradılması istiqamətində işlər aparılır.

Hesab edirəm ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ərazidə aqrar sektorun inkişafına, ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə, əhalimizin öz doğma yurdlarına mərhələli şəkildə qayıdışına şərait yaradacaq.

Ötən il rayonun işğaldan azad edilmiş ərazilərində 10 min 744 hektarda əkin aparılmışdır. İstehsal edilmiş taxılın 9 min 798,5 tonu və ya 60,2 faizi rayonun bu ərazilərinin payına düşür. Ümumilikdə, işğaldan azad edilmiş sahələrin əkin dövriyyəsinə qaytarılması məhsul istehsalına nəzərəçarpacaq dərəcədə təsir etmişdir. Belə ki, son 4 ildə həmin ərazilərdən 35 min 496,8 ton taxıl istehsal edilmişdir.

***– Son illər ölkədə ət, süd məhsullarına, yumurtaya tələbat artmışdır. Cəbrayıl rayonunda bu sahələrin inkişaf dinamikası sizi qane edirmi?***

– Bəli, bütövlükdə, aqrar sektorda müsbət dinamika müşayiət olunur. Bu isə davamlı və düşünülmüş işlərin sayəsində mümkün olub. 2025-ci ildə rayon üzrə iribuynuzlu heyvanların sayı 11 min 513 baş, o cümlədən inəklərin sayı 4 min 634 baş, xırdabuynuzluların sayı 91 min 464 baş olmuşdur. Ailə-kəndli təsərrüfatlarında 108 baş dəvə, 124 min 112 baş müxtəlif ev quşları var. 2025-ci ildə ət istehsalı diri çəkidə 2 min 406 ton, süd istehsalı 9 min 433 ton, yun istehsalı 166 ton, yumurta istehsalı 6,45 milyon ədəd olmuşdur. Bütün bu uğurlar ona görə mümkün olub ki, rayonda mal-qaranın cins tərkibi xeyli yaxşılaşıb, heyvandarlıqda müasir texnologiyaların tətbiqi genişlənib. Cəbrayıl sakinlərinin heyvandarlıq məhsullarına olan tələbatı əsasən yerli istehsal hesabına ödənilir.

Ötən il ərzində Laçın və Kəlbəcər rayonlarına, ümumilikdə, 30 fərdi fermer təsərrüfatı üzrə 14 min 907 baş xırdabuynuzlu, 715 baş iribuynuzlu, 76 baş təkdırnaqlı heyvan yaylaqlara köçürülmüşdür. 2025-ci ildə ilk dəfə olaraq 18 baş dəvə yaylağa aparılmışdır. Əvvəlki illə müqayisədə yaylaqlara 5 min 853 baş çox xırdabuynuzlu və 57 baş çox iribuynuzlu heyvan aparılmışdır.

***– Son illər rayonda arıçılığın inkişafına da diqqət və qayğı artırılmışdır. Arıçılar onlara göstərilən dəstəkdən razı qaldıqlarını söyləyirlər...***

– Bəli, bu, həqiqətən, belədir. Ötən il 42 arıçının 1744 arı ailəsinin də işğaldan azad edilmiş ərazilərə köçü təmin edilmişdir ki, bu da əvvəlki ildəkindən 234 arı ailəsi çoxdur. Onlardan 37 arıçının 1524 arı ailəsi Cəbrayıl rayonuna, 5 arıçının 220 arı ailəsi isə Laçın rayonuna köçürülmüşdür.

Yaylaq mövsümü ərzində DAİM-in əməkdaşları həmin bölgələrə ezam edilmiş, vəziyyət yerində monitorinq edilmiş və lazımi kömək göstərilmişdir. Ötən ilin payızından başlayaraq qışlama dövrünü keçirmək üçün 12 fermerin 496 baş iribuynuzlu, 3 min 61 baş xırdabuynuzlu, 26 baş təkdırnaqlı, 18 baş dəvəsi və 4 arıçının 168 ədəd arı pətəyi rayonun işğaldan azad edilmiş ərazilərində yerləşdirilmişdir.

***– Bu il kənd təsərrüfatı məhsulları istehsalını genişləndirmək üçün hansı hədəfləriniz var?***

– Cari ilin məhsulu üçün ötən ilin payızında 13 min 575 hektar sahədə taxıl səpini aparılmışdır ki, onun da 3 min 10 hektarı buğda, 10 min 565 hektarı arpa sahələridir. Aparılmış əkinlərin 11 min 500 hektarı və ya 84,7 faizi rayonun işğaldan azad edilmiş ərazilərindədir. Hazırda payızlıq əkin sahələrində bitki mühafizə və digər aqrotexniki tədbirlər həyata keçirilir.

Məlumdur ki, “Böyük Qayıdış” Dövlət Proqramı çərçivəsində cəbrayıllı ailələrin rayon mərkəzində və kəndlərdə məskunlaşdırılmasına başlanılıb. DAİM rəhbərliyi rayonun işğaldan azad edilmiş ərazilərdə məskunlaşacaq ailələrə, eləcə də sahibkarlıq subyektlərinə veriləcək torpaq sahələrindən daha səmərəli istifadə edilməsi məqsədilə onlara hərtərəfli mütəxəssis dəstəyini gücləndirmək əzmindədir.

***– Müsahibə üçün çox sağ olun!***



***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***